AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №2, səh. 131-133 (2013)

İlyas Abdullayev - 100

NƏSİLLƏRƏ NÜMUNƏ OLAN ALİM ÖMRÜ

Azərbaycanda tutçuluq elminin əsasını qoyan, görkəmli alim, bacarıqlı təşkilatçı, pedaqoq, ictimai xadim, akademik İlyas Kərim oğlu Abdullayevin anadan olmasının 100, elmi-pedaqoji və ictimai fəaliyyətinin 80 ili tamam olur. İlyas Abdullayev 23 mart 1913-cü ildə Ağstafa şəhərində dəmiryolçu ailəsində anadan olmuşdur. 1921-1926-cı illərdə Ağstafa beşillik dəmiryolu məktəbində oxumuşdur. 1926-1930-cu illərdə Zaqatala kənd təsərrüfatı texnikumunda təhsilini davam etdirmiş və dövrün çox görkəmli maarifçilərindən dərs almışdır. Həmin dövrdə texnikuma görkəmli ziyalı Əhməd bəy Cabbar oğlu Rəcəbli rəhbərlik edirdi və gənclərin təhsili ilə əsasən Qori seminariyasının yetirmələri olan Musa Əfəndizadə, Şahid Əfəndizadə, İsa bəy Abakarov, Məmməd Teymurxanlı, Mixail Xutsuyev, Ə.Qasımov, Sergey Gerasimenko, Aleksandr Gerasimenko və başqaları məşğul olurdular. Heç də təsadüfi deyildir ki, həmin texnikumun məzunları sonralar çox görkəmli şəxsiyyətlər kimi yetişdilər. İ.K.Abdullayev texnikumu bitirdikdən sonra göndərişlə 1930-1931-ci illərdə Vartaşen (indiki Oğuz) kolxozçu gənclər məktəbində müəllim-aqronom işləmişdir. Elmə-təhsilə marağı güclü olan İ.K.Abdullayev 1931-1934-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (AKTİ) təhsil almış və paralel olaraq 1932-1934-cü illərdə ipəkçilik kafedrasında laborant işləmişdir. O, 1934-cü ildə Z.S.Əfəndiyevin rəhbərliyi altında “Tut ipəkqurdunun monovoltin cinslərinin müqayisəsi” mövzusunda yazdığı diplom işini üğurla müdafiə etmiş, ekstern yolla, fərqlənmə diplomu ilə institutu bitirmişdir.

O, 1934-1938-ci illərdə AKTI-nin aspirantı olmuş və eyni zamanda ipəkçilik şöbəsində tutçuluq kursundan mühazirələr oxumuşdur.I.K Abdullayevin böyük istedadını nəzərə alaraq 1934-cü ilin avqust ayında Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi onu eyni zamandaAzərbaycan Elmi-Tədqiqat İpəkçilik stansiyasına işə göndərmişdir. Beləliklə də o, 1934-1935-ci illərdə Tutçuluq şöbəsində elmi işçi, 1936-1940-cı illərdə isə müdir vəzifəsində işləmişdir. O, qısa zamanda özünü bacarıqlı təşkilatçı kimi göstərmiş və 1941-1942-ci illərdə eyni zamanda Azərbaycan elmi-tədqiqat Ipəkçilik Stansiyasının direktoru vəzifəsində çalışmışdır.

O, 1939-cu ildə A.Q.Kafianın elmi rəhbərliyi altında «Влияние минеральных удобрений на урожай и кормовые качества



листа шелковицы » (Mineral gübrələrin tutun məhsuldarlığına və yarpağın yemlik keyfiyyətinə təsiri) mövzusunda dissertasiya işini Gürcüstan Kənd Təsərrüfatı İnstitutunun Elmi şurasında uğurla müdafiə etmiş və kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır. O, mineral gübrələrin tut bitkisinə təsirini öyrənmək məqsədilə Stansiyanın Gəncə bazasında xüsusi təcrübələr aparmış və bu məqsədlə 26 faizli Leyno şorasından, 14 faizli superfosfatdan və 41 faizli kalium duzundan istifadə etmişdir. Təsiredici maddə hesabı ilə hektara 120 kq azot, 90 kq fosfor və 60 kq kalium gübrələri 8-9 illik tut ağaclarının olduğu təcrübə sahəsinə verilmişdir. Belə ki, fosforun, kaliumun hamısı və azotun yarısı 17 apreldə, azotun qalanhissəsi isə 20 mayda 15-18sm dərinliyə verilmiş, üstü örtülmüş və sonra suvarılmışdır. O, eyni zamanda Azərbaycan SSR-in 7 rayonunda 325 sahədə (məntəqədə) kütləvi təcrübələr aparmış və gübrələrin təsirindən yarpaq məhsuldarlığının orta hesabla 20-35% arasında artdığını müəyyən etmişdir.

İ.K.Abdullayev 1935-ci ildə ilk dəfə Azərbaycan SSR-də tutun seleksiyası və sortsınağı üzrə elmi tədqiqat işlərini təşkil etmiş və ömrünün sonuna qədər bu işlərə rəhbərlik etmişdir. O, 1936-1940-cı illərdə Azərb.SSR-in əsas ipəkçilik rayonlarına ekspedisiyalar təşkil etmiş, tut bitkisinin meyvəlik və yemlik istiqamətlərdə növ və sort tərkibini öyrənmiş, 400 perspektivli forma seçmiş və ilkin qiymətləndirmədən sonra 115 forma

daha perspektivli hesab edilmiş, göz calağı ilə artırılmış və Kirovabadda (indiki Gəncə) ilk tut kolleksiyası yaradılmışdır. Bu kolleksiyaya həmçinin xarici ölkələrdən introduksiya edilmiş 20, o zamankı Sovet respublikalarından gətirilmiş 15 tut sortu və xalq seleksiyası tərəfindən yaradılmış meyvəlik Şah-tut, Bidanə-tut, Xar-tut, Tehran-tut və s. sortlar da daxil edilmişdi.

İ.K.Abdullayev öz əməkdaşları ilə birlikdə Qusarçay ZTS-də, Abşeron və Qarabağ elmi-eksperimental bazalarında və eləcə də Ağdaş dayaq məntəqəsində tut sortlarının zəngin kolleksiyalarınıyaratmışdı.

Onun rəhbərliyi və iştirakı ilə analitik və sintetik seleksiya metodlarından istifadə etməklə Azərbaycanın ilk seleksiya sortları Zərif-tut, Sıxgöz-tut, Azəri-tut, Firudin-tut, Emin-tut, Yaqub-tut, Zakir-tut, Xanlar-tut, Tozlayan-tut, Rəhim-tut və b. yaradılmış, sınaqdan keçirilmiş və istehsalata yayılmışdır. Belə ki, onun yaratmış olduğu Zərif-tut, Sıxgöz-tut, Xanlar-tut, Zakir-tut, Firudin-tut, Emin-tut və Yaqub-tut perspektivli sortlar kimi geniş şəkildə istehsalata yayılmışdır. Belə ki, XX əsrin sonlarına yaxın Azərbaycanda 25000 hektara yaxın tut plantasiyası və 25 milyondan artıq tək-tək əkilmiş tut ağacları var idi. Belə bir güclü yem bazasına maik olan Azərbaycan respublikası 1991-ci ildə rekord miqdarda, yəni 6000 tona yaxın barama istehsal etmişdir.

İ.K.Abdullayevin yaratdığı tut sortları həmçinin Özbəkistanın, Tacikistanın, Gürcüstanın, Türkmənistanın, Ukraynanın, eləcə də Bolqarıstanın və Rumıniyanın elmi-tədqiqat müəssisələrində və bəzi təsərrüfatlarda becərilirdi.

İ.K.Abdullayev 1942-1943-cü illərdə Azərbaycan K(b)P kənd təsərrüfatı şöbəsi müdirinin müavini, 1943-1948-ci illərdə kənd təsərrüfatı şöbəsinin müdiri və MK katibinin müavini vəzifələrində çalışmış və Böyük Vətən müharibəsi illərində arxa cəbhənin işinin təşkili, əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatı və evakuasiya (köçürmə), yerləşdirmə, hərbi hospitalların təşkili və s. kimi çox mürəkkəb işlərə bacarıqla rəhbərlik etmişdir. İ.K.Abdullayev 1948-1950-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini, 1950-1954-cü illərdə Azərbaycan SSR Kənd Təsərrufatı Naziri, 1954-1958-ci illərdə Azərbaycan SSR Nazirər Soveti Sədrinin birinci müavini, 1958-1959-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin sədri, 1958-1962-ci illərdə isə SSRI Ali Soveti Rəyasət Heyyəti sədrinin müavini kimi çox məsul vəzifələrdə işləmiş, həmişə də öz fitri istedadı və böyük təşkilatçılıq qabiliyyətilə seçilmişdir. 1926-cı ildən komsomolun və həmkarlar ittifaqının, 1939-cu ildən kommunist partiyasının üzvü olmuş, 1939-cu ildə 1-ci çağırış Kirovabad (indiki Gəncə) şəhər sovetinin deputatı, 1947-1959-cu illərdə IV-VII çağırış Bakı şəhər zəhmətkeş deputatları Sovetinin deputatı, 1947-ci ildə II çağırış, 1955-ci ildə IV çağırış, 1959-cu ildə V çağırış Azərbaycan SSR Ali Sovetinin, 1951-ci ildə III çağırış, 1954-cü ildə IV çağırış, 1958-ci ildə isə V çağırış SSRI Ali Sovetinin deputatı olmuş, ölkə həyatı üçün çox mühüm qanunların hazırlanmasında və qəbul edilməsində yaxından iştirak etmişdir.

Onun vətən qarşısında xidmətləri partiya və hökumət tərəfindən layiqincə qiymətləndirilmiş və o, «Qırımızı əmək bayrağı», «Şərəf nişanı» ordenləri ilə, 4 medalla, eləcə də Ümumittifaq kənd təsərrüfatı nailiyyətləri sərgisinin 4 qızıl, 1 gümüş və 2 bürünc medalları ilə təltif edilmişdir.

İ.K.Abdullayev hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə alim kimi öz elmi yaradıcılığını davam etdirmişdir. 1944-cü ildə «Azərbaycan SSR-də tutçuluğa dair aqronomiya qaydaları» kitabını həm azərbaycan, həm də rus dillərində çap etdirmiş və həmin «Qaydaları» təkmilləşdirilmiş şəkildə 1959-cu ildə yenidən azərbaycan və rus dillərində dərc etdirmiş, yaymış və bu gün də onlar hər bir tutçu, ipəkçi mütəxəssisin stolüstü kitabıdır.

O, 22 iyun 1955-ci ildə Azərbaycan SSR Elmlər akademiyasının həqiqi üzvü seçilmişdir, 1956-cı ildən ömrünün sonuna qədər Genetika və seleksiya Institutunun (indiki Genetik ehtiyatlar institutu) «Çoxillik bitkilərin genetikası və seleksiyası» şöbəsinə rəhbərlik etmişdir. İ.K.Abdullayev 1957-ci ildə «Azərbaycan SSR-də meyvəçiliyin, üzümçülüyün və tutçuluğun inkişafı haqda» tədbirlərin hazırlanması üzrə Respublika komissiyasının sədri, 1958-ci ildə «Azərbaycan SSR-in Atlası»nın hazırlanması və nəşri üzrə Azərbaycan SSR EA-sı komissiyasının sədri, 1948-1958-ci illərdə SSRI Baş sərgi komitəsinin üzvü və kənd təsərrüfatı nailiyyətləri sərgisinin Azərbaycan respublika komitəsinin sədri, 1959-cu ildən Genetika və seleksiya institutu elmi şurasının üzvü, 1963-cü ildən Azərbaycan Sovet Ensiklopediyası elmi redaksiya şurasının üzvü və Azərb. SSR EA genetika və seleksiya üzrə problem Şuranın üzvü, 1966-cı ildən Azərbaycan genetiklər və seleksiyaçılar cəmiyyətinin prezidenti, N.İ.Vavilov adına Ümumittifaq genetiklər və seleksiyaçılar cəmiyyəti rəyasət heyyətinin üzvü, 1967-ci ildən Azərb.SSR EA biologiya elmləri bölməsi akademik katibinin müavini, biologiya elmləri üzrə birləşmiş şuranın üzvü, 1969-cu ildən Azərb.SSR EA Əlaqələndirmə şurasının üzvü və «Genetika», «Seleksiya və Toxumçuluq» ixtisası üzrə müdafiə şurasının üzvü, 1970-ci ildən Azərb.SSR EA «Xəbərləri» (biologiya elmləri seriyası) jurnalının redaktor müavini olmuşdur.

İ.K.Abdullayev seleksiyanın klassik metodları

ilə yanaşı genetik metodlardan da tutun, üzümün, bağ çiyələyinin və qarağatın seleksiyasında uğurla istifadə etmişdir. O,tutçuluqda fiziki və kimyəvi mutagenlərin tətbiqinə, eksperimental poliploidiya metodlarının işlənməsinə xüsusi əmək sərf etmiş, SSRI miqyasında ilk dəfə bu məsələləri uğurla həll etmiş və çox böyük praktiki nəti-cələr əldə etmişdir. Onun öz əməkdaşları ilə apardıqları tədqiqatlar Co 60 və Se-137–nin radioaktiv şüalanmasının stimuləedici, mutagen və letal dozalarını müəyyən etməyə imkan vermişdir. Aydın olmuşdur ki, quru tut toxumları üçün 3000 rentgenə qədər stimuləedici, 3000-dən 10000-ə qədər mutagen, ondan yüksək dozalar isə letal dozalardır. Həmçinin müəyyən edilmişdir ki, poliploid toxumlar diploid toxumlara nisbətən radioaktiv şüalanmaya 2 dəfə artıq davamlıdırlar. İ.K.Abdullayevin rəhbərliyi ilə mutagenlərdən kolxisinin suda məhlulundan, etilenimin və etilmetansulfonatdan tutun mutant və poliploid formalarını almaq üçün geniş şəkildə istifadə edilmiş və keçmiş Ittifaq miqyasında çox yüksək qiymətləndirilən uğurlar qazanılmışdır.

İ.K.Abdullayev öz əməkdaşları Y.P. Rəcəbli, N.A.Cəfərov, M.O.Əliyev, A.S.Mustafayev, L.Ə.Şiriyeva, S.C.İmamquliyev, A.H.Nəhmətov və b. ilə birlikdə eksperimental mutagenez və polipldoidiya metodlarından geniş istifadə etməklə yemlik tutun triploid Əhməd-tut, Vaqif-tut, Vətən-tut, Qaragöz-tut, Dövlət-tut, Dostluq-tut və tetraploid Məhsullu-tut, Xəzər-tut və Kol-tut sortlarını eləcə də meyvəlik triploid Turşməzə-tut, tetraploid Azərbaycan-tut, Bakı-tut, Sumqayıt-tut, Abşeron-tut və Dadlı-tut sortlarını yaratmış və istehsalatda tətbiq üçün tövsiyə etmişdir. İ.K.Abdullayev seleksiyanın klassik və genetik metodlarından yaradıcılığında istifadə etməklə öz əməkdaşları ilə birlikdə həmçinin üzümün Şərabı, Faraşı, Aynuri, Kamalə, Məlahəti, Fikrəti və Ətirli sortlarını, bağ çiyələyinin Abşeron, Bakı və s. sortlarını, eləcə də qara qarağatın xeyli qiymətli formalarını yaratmış və Dövlət sortsınağına təqdim etmişdir.

İ.K.Abdullayev tutun autopoliploidiyası və allopoliploidiyası üzrə alınmış nəticələri və eləcə də təbiətdə olan spontan poliploid formaların və sortların varlığını nəzərə alaraq tutun poliploidiya sırasını özündə əks etdirən cədvəl tərtib etmiş və çatışmayan formaların alınmasının nəzəri əsaslarını hazırlamışdır. O,dünya miqyasında ilk dəfə N.A.Cəfərovla birlikdə sərbəst tozlanma və eləcə də istiqamətli hibridləşdirmə yolu ilə 22 ploidli Xar-tut sortunun toxum nəslini almış və həmin formaları hibridləşdirməyə daxil etməklə poliploidiya sırasının çatışmayan formalarının (manqalarının) alınmasını təmin etmişdir. Onun rəhbərliyi və iştirakı ilə tutun poliploidiya sırasının 28,42,56,70,84,98,112,168,182,238 və 308 xromosomlu formaları alınmışdır. Bütün bu tədqiqatlar İ.K.Abdullayevə «Irsi dəyişgənlikdə poliploid sıralar qanunu və poliploidiya nəzəriyyəsi» ni hazırlayıb elmi ictimaiyyətin mühakimə-sinə verməyə imkan vermişdir.

İ.K.Abdullayevin Respublikamızda eksperimental mutagenez və poliploidiya üzrə aparılmış tədqiqatların yekunlarına həsr edilmiş «Poliploidiya bitkilərin seleksiyasında və təkamülündə» mövzusunda SSRI EA-nın Rəyasət heyyətinin 29 iyul 1971-ci il tarixli iclasında etdiyi məruzə çox böyük maraqla qarşılanmışdır. SSRI EA-nın vitse-prezidenti A.N.Belozerski, akdemiklər A.A.Bayev, N.I.Dubinin, B.Z.Astaurov və b. öz çıxışlarında respublika alimlərinin tədqiqatlarının nəzəri, metodiki və praktiki nəticələrini yüksək qiymətləndirmişlər.

İ.K.Abdullayev elmi nailiyyətlərin təbliğinə də müstəsna əhəmiyyət vermiş və tutun, üzümün, bağ çiyələyinin, qara qarağatın genetikasına, seleksiyasına, aqrotexnikasına, biokimyasına, anatomiyasına, sitologiyasına və s. həsr edilmiş 300-ə qədər elmi əsər yazmışdır.

R. Hüseynov adına Azərbaycan ET İpəkçilik İnstitutunun aparıcı elmi işçisi, b.e.n., dosent Əlövsət Sadıxov